https://doi.org/10.59849/3006-1342.2026.2.99
UOT 902

*Aytən Arif qızı İsayeva*
*AMEA Gəncə Bölməsi Diyarşünaslıq İnstitutu*
*Kiçik elmi işçi*
*E-mail: ayten.isayeva.1998@bk.ru*
*ORCID ID: 0009-0002-1922-9342*
*Müşərrəf Elxan qızı İbrahimova*
*AMEA Gəncə Bölməsi Diyarşünaslıq İnstitutu*
*Böyük laborant*
*E-mail: ibrahimli.muserref@mail.ru*

# GƏNCƏ BÖLGƏSİNİN ƏNƏNƏVİ QADIN GEYİMLƏRİ VƏ ONLARIN ETNOQRAFİK XÜSUSİYYƏTLƏRİ

*Məqalədə Gəncə bölgəsinin ənənəvi qadın geyimləri və onların etnoqrafik xüsusiyyətləri araşdırılır. Araşdırmalar göstərir ki, bu geyimlər Azərbaycanın ümumi milli geyim sisteminin tərkib hissəsi olmaqla yanaşı, özünəməxsus lokal xüsusiyyətlərə malik olmuşdur. Geyimlərin hazırlanmasında yerli toxuculuq və ipəkçilik ənənələri mühüm rol oynamış, onların biçimi, rəng seçimi və bəzək elementləri bölgənin estetik zövqünü və sosial-mədəni mühitini əks etdirmişdir. Məqalədə qadın geyim kompleksinin əsas tərkib hissələri olan alt və üst geyimlər, baş və ayaq geyimləri təhlil edilmiş, onların sosial status, yaş fərqləri və regional xüsusiyyətləri ilə bağlılığı vurğulanmışdır. Beləliklə, Gəncə bölgəsində formalaşmış qadın geyim ənənələri tarixi-etnoqrafik baxımdan zəngin, çoxşaxəli və mühüm mədəni irs nümunəsi kimi xarakterizə olunur.*

*Açar sözlər:* Gəncə, ənənəvi qadın geyimləri, ipəkçilik və toxuculuq, Azərbaycan milli geyimləri, XIX-XX əsr

## *Giriş*

Geyim insan cəmiyyətinin yaranışı qədər qədim tarixə malik olub, bəşəriyyətin maddi və mənəvi həyatının mühüm tərkib hissələrindən biri hesab edilir [6, s. 2]. Mütəxəssislərin fikrincə, geyimin yaranma tarixi eramızdan əvvəl 40–25-ci minilliklərə təsadüf edir [4, s. 11]. İlk dövrlərdə insanlar təbiətin sərt şəraitindən qorunmaq məqsədilə heyvan dərilərindən və ağac yarpaqlarından istifadə edərək sadə geyim formaları yaratmışlar [6, s. 2]. Zaman keçdikcə geyim yalnız insanın fiziki tələbatını ödəyən vasitə deyil, həm də cəmiyyətin inkişaf səviyyəsini, estetik zövqünü və milli kimliyini əks etdirən mühüm sosial göstəriciyə çevrilmişdir.

Azərbaycan milli geyimləri də bu ümumi inkişaf prosesinin tərkib hissəsi kimi formalaşmış, xalqın tarixi, məişəti, adət-ənənələri və dünyagörüşü ilə sıx bağlı olmuşdur. Əsrlər boyu inkişaf edən bu geyim nümunələri özünəməxsus rəng çalarları, naxış sistemi və biçim xüsusiyyətləri ilə seçilmiş, xalqın bədii təfəkkürünü və estetik baxışlarını özündə əks etdirmişdir [10].

Azərbaycanın əlverişli təbii-coğrafi şəraiti, ipəkçilik, pambıqçılıq və yunçuluğun inkişafı milli geyimlərin formalaşmasına mühüm təsir göstərmişdir. Tarixən burada atlas, zərbaf, məxmər, kətan və müxtəlif ipək parçalar istehsal olunmuş, bu parçalar həm yerli əhalinin geyimində, həm də xarici ölkələrə ixracda mühüm rol oynamışdır.

Aparılan tədqiqatlar göstərir ki, XII–XIII əsrlərdə Azərbaycanın mühüm sənətkarlıq və ticarət mərkəzlərindən biri olan Gəncə parça və geyim istehsalı sahəsində ixtisaslaşmışdı.

Şəhərdə zərlə işlənmiş atlas və diba kimi qiymətli ipək parçalarla yanaşı, sadə ipək parçalar və yun paltarlar da hazırlanırdı [14, s. 19].

Gəncədə ipəkçiliyin və toxuculuq sənətinin inkişafı bölgənin geyim adət-ənənələrinin formalaşmasında mühüm rol oynamışdır. Əhalinin, xüsusilə kübar təbəqənin geyimlərində milli ləyaqət, vüqar, əzəmət, zövq və adət-ənənələrə bağlılıq aydın şəkildə əks olunurdu. Geyimlərin hazırlanmasında dəri, gön, keçə, yun, ipək, kətan və pambıq kimi materiallardan istifadə edilirdi. Bu xüsusiyyətlər Gəncədə zəngin və özünəməxsus geyim ənənələrinin mövcud olduğunu göstərir [15, s. 178].

Dahi Azərbaycan şairi Nizami Gəncəvi "Xosrov və Şirin" poemasında Şirin obrazı vasitəsilə Gəncənin kübar qadınlarının ipək geyimlərini və onların bəzək elementlərini bədii şəkildə tərənnüm edərək XII əsr Azərbaycanında, o cümlədən Gəncə mühitində formalaşmış geyim ənənələri haqqında dəyərli məlumatlar vermişdir [1, s. 86].

XVIII əsrdə Gəncə və digər xanlıqların yaranması geyim sahəsinə müəyyən təsir göstərmişdir. Xanlıqların fərqli siyasi və iqtisadi şəraitdə mövcudluğu nəticəsində geyimlərdə dəyişikliklər baş vermiş, bu dəyişikliklər əsasən geyimin biçimi və siluetində deyil, istifadə olunan materiallarda və bəzək elementlərində özünü büruzə vermişdir [5, s. 110].

XVIII əsrin sonlarında Azərbaycana səfər etmiş səyyah marşal Fon Biberşteyn bu ölkənin qadınlarının və onların geyimlərinin gözəlliyinə valeh olduğunu qeyd edirdi. Bu dövrdə qadın geyimləri öz zənginliyi, rəngarəngliyi və bədii tərtibatı ilə seçilmişdir [6, s. 21].

XIX əsrdə Azərbaycan geyimləri əvvəlki dövrlərin geyim ənənələrinin davamı kimi inkişaf etmiş, lakin yeni ictimai-mədəni şəraitin təsiri altında müəyyən təkmilləşmələrə məruz qalmışdır. Bu inkişaf prosesi Azərbaycanın ayrı-ayrı tarixi-etnoqrafik bölgələrində, o cümlədən Gəncə bölgəsində də özünü göstərmişdir. XIX əsr və XX əsrin əvvəllərinə aid geyim nümunələri tipoloji baxımdan XVIII əsr geyimlərindən ciddi şəkildə fərqlənməsə də, onların biçimində, tikiş texnikasında və dekorativ tərtibatında daha mükəmməl xüsusiyyətlər meydana çıxmışdır [3, s. 26].

Gəncənin və Qarabağın yanları hörmə rezinli, xrom və adi aşılanmış göndən tikilmiş alçaqdabanlı uzunboğaz çəkmələri, həmçinin yerli sənətkar-çəkməçilər tərəfindən parçadan hazırlanan uzunboğaz çəkmələri, zıbın və ya zıbını adlanan, köynəyin üstündən geyilən mövsümi geyim, mindoylu köynək, "yar-yardan incidi" adlı ayaq geyimi və kəmər növü, "məndulə" çəpkən və arxalıq, baharı (küləcə), eləcə də gəncəli usta Ağamirzənin qəlibkarlıq üsulu ilə hazırladığı zinət-bəzək məmulatları Gəncə və Gəncəbasarın maddi mədəniyyətinin məhəlli-lokal spesifikasını səciyyələndirən mühüm geyim və bəzək növləri olmuşdur [15, s. 178].

Geyimlər Azərbaycanın ayrı-ayrı tarixi-etnoqrafik bölgələrinin lokal xüsusiyyətlərini əks etdirməklə bərabər, eyni zamanda onu geyən şəxsin yaşını, ailə və ictimai vəziyyətini də büruzə verirdi. Qadın geyimlərində yaş və ailə statusuna görə nəzərəçarpacaq fərqlər mövcud idi. Belə ki, cavan qızların, ailəli qadınların və yaşlı qadınların geyim dəstləri bir-birindən seçilirdi. Cavan gəlinlər daha zəngin, rəngarəng və bəzəkli geyimlərə üstünlük verir, qızlar və yaşlı qadınlar isə zinət və bəzək əşyalarından nisbətən az istifadə edirdilər [7, s. 75].

Bu fərqliliklər geyimlərin hazırlanmasında istifadə olunan materialların çeşidində və onların istehsal xüsusiyyətlərində də öz əksini tapmışdır. F.İ.Vəliyev öz yazılarında qeyd edir ki, Azərbaycanın Qərb bölgəsində XIX və XX yüzilliyin əvvəllərində əhali geyim materialları kimi əsasən yerli ustalar tərəfindən kustar üsulla üfüqi toxucu dəzgahında-kərəndə toxunmuş qılıcı şaldan, müxtəlif növlü və rəngli ipəkdən, nazik yun və pambıq parçalardan, həmçinin aşılanmış gön və dəridən istifadə edərdi. Bununla yanaşı alınma fabrik malları da geyim materialı kimi istifadə olunurmuş [3, s. 31-32].

XIX əsr faktik materiallarının təhlili göstərir ki, geyimlərin hazırlanmasında əsas diqqət estetik görünüşə yönəldilmiş, məqsəd kənardan baxanın zövqünü oxşamaq olmuşdur. Bu

səbəbdən geyimin rahatlığı ikinci dərəcəli amil kimi qəbul edilmişdir. Geyimlərdə əsasən al və yaşıl rənglərdən geniş istifadə olunmuş, bu rənglər qadın geyimlərində də öz əksini tapmışdır [3, s. 37].

Gəncə bölgəsində isə geyimlərdə əsasən tünd yaşıl və şabalıdı rəng çalarlarına üstünlük verilmişdir. Bu rəng seçimi bölgənin təbii mühiti və estetik zövqü ilə əlaqələndirilir.

Geyimlərin rəng xüsusiyyətləri ilə yanaşı, onların quruluş baxımından ümumi forması da diqqət çəkir. Gəncə bölgəsində qadın geyimləri "alt paltarları" və "üst paltarları" olmaqla iki əsas hissədən ibarət olmuşdur [2]. Qadın alt paltarı - alt köynəyi (müxtəlif bölgələrdə ona "can köynəyi" və "ət köynəyi" də deyirlər), cütbalaq (taylı tuman) və darbalaqdan (dizlik) ibarət olmuşdur [1, s. 93].

Qadın alt köynəkləri həm əl ilə toxunan, həm də fabrik istehsalı olan pambıq və ipək parçalardan biçilib tikilirdi. Onlar əsasən "Morozov ağı", "Tağıyev ağı", qalın ağ bez və hamuyan ağından hazırlanırdı. da istifadə olunurdu. Bəzi hallarda üst köynəyini əvəz etdiyi üçün şilə, qədək, qanovuz kimi rəngli parçalardan da tikilməsinə rast gəlinirdi. Alt köynəyi üst köynəkdən daha uzun və enli biçilir, hər iki tərəfində hərəkəti asanlaşdırmaq üçün "çapıq" və ya "peş" adlanan yarıqlar qoyulurdu. Qolları uzun olub, bilək hissəsində büzməli manjetlə (bilərziklə) tamamlanırdı [14, s. 28].

Gürcüstan Dövlət Muzeyində saxlanılan sabiq Gəncə quberniyasının Bucaq kəndinə aid qadın alt köynəyi qısa ətəkli və əl ilə tikilmiş nümunədir. Köynəyin gövdə uzunluğu təxminən 63 sm-dir. Yaxa hissəsi ensiz qara sap zolağı ilə tikmələnərək bəzədilib. Köynəyin boynunda 3 sm enində dik boyunluq var. Şirvan qadın köynəklərindən fərqli olaraq, yaxası iki düymə ilə bağlanır. Qoltuqaltı hissəyə hərəkəti asanlaşdırmaq üçün "xişdək" adlı əlavə parça tikilib. Qısa ətəkli digər köynəklərdə olduğu kimi, qolların ucu məcəli şəkildə işlənib [12, s. 132].

Qadın alt geyimləri kompleksinə daxil olan çaxçur, bir qayda olaraq, şəhər əhalisinin, xüsusilə də varlı və kübar ailələrin geyimi kimi mövcud olmuşdur. Ayağı büzməli şalvarı xatırladan bu geyim tipi Yaxın və Orta Şərq ölkələrindən yayılaraq Orta Asiya və Qafqaz vasitəsilə Azərbaycana daxil olmuşdur. Çaxçur geyim tipi Gəncədə, Naxçıvanda, Abşeronda və Şirvanda (Şamaxı, Basqal, Lahıc) daha çox istifadə olunurdu [9, s. 94].

Qadın üst geyimlərinə üst köynəyi, arxalıq, çəpkən, ləbbadə, küləcə, kürdü, eşmək və baharı daxil idi [8, s. 6]. Bu geyim kompleksinin əsas elementlərindən biri üst köynəyi olmuşdur. Üst köynəyi kəsmə və tuniki biçimdə tikilir, qolları isə yelpazəli və ya bilərzikli (məcəli) olurdu. Yelpazəli köynəklər boyunduruqsuz, bilərzikli köynəklər isə boyunduruqlu hazırlanırdı. Sahibinin maddi imkanından asılı olaraq qadın üst köynəyi qanovuz, darayı, atlas, mov, xara kimi bahalı ipək parçalardan, yaxud fay, satin, şal və çit kimi daha sadə materiallardan tikilirdi. Qoltuq hissəsinə hərəkəti rahatlaşdırmaq məqsədilə xişdək əlavə olunurdu. Yaxa və boyun kəsiyi rəngli saplarla işlənmiş yaxalıqlarla, qol ağızları və yan çapıqları isə sarımabafta, hərəmi və qaragöz kimi dekorativ elementlərlə bəzədilirdi [14, s. 29]. Qabaq ətəyinə qızıl və gümüş sikkələr, həmçinin midaxıl, pilək və zərənduz-çaxma pilək kimi metal bəzəklərlə işlənmiş "ətəklik" tikilirdi. Ətəyi isə adətən tumanın üstündən salınırdı. Bu tip qadın üst köynəkləri Qarabağ, Şirvan, Muğan, Gəncəbasar və Bakı etnoqrafik bölgələri üçün səciyyəvi olmuşdur [12, s. 133-134].

Azərbaycanın Qərb bölgəsi və Gəncəbasar hüdudlarında mövsümi səciyyəli, çiyinə geyilən qadın üst geyimi – zıvın (zıbın) geniş yayılmışdır. Bu geyim növü əsasən soyuq mövsümlərdə köynəyin üstündən geyinilən qışlıq üst paltarı kimi istifadə olunurdu. Zıvının uzunluğu tumanın nifə yerinə qədər çatır, yan hissələrində çapıq (peş) olur, qolları isə dirsəyə qədər uzanırdı. Xişdək əvəzinə qoltuqaltı hissəyə xüsusi kəsik əlavə edilirdi. Mövsümi xarakter daşıdığından və digər üst geyimlərinin (arxalıq, lavada, çərkəzi və s.) altından geyildiyindən, əsasən ucuz parçalardan tikilir və bəzək elementlərindən istifadə olunmurdu. Zıvının yan çapığı ətəkdən 8–10 sm kənara çıxaraq "qulaqcıq" adlandırılırdı. Bu detalın hər

iki tərəfi ön ətəyə, arxa hissəsi isə arxa ətəyə, yuxarı hissəsi isə qoltuqaltına bərkidilirdi [1, s. 99-100]. Etnoqrafik mənbələrdə ayrımlar arasında zıvının iki tipi – "ara zıvın" və "üst zıvın" qeydə alınmışdır. Ara zıvın sadə quruluşa malik olduğu halda, üst zıvının ətəyi bəzi hallarda mis və gümüş pullar, asma bəzəklər və düymə-həbbablarla bəzədilirdi.

İstər faktik, istərsə də etnoqrafik materialların təhlili göstərir ki, "çəpkən" qadın üst geyimləri arasında əsas tipoloji geyim forması olmuş, zıvını da daxil olmaqla arxalıq, nimtənə, ləbaddə (lavada), baharı və küləcə kimi geyimlərin formalaşmasında baza rolunu oynamışdır. Bu baxımdan həmin geyimlər biçim prinsipi, tikiş texnikası, bədənə kip oturuşu və ümumi konstruktiv quruluşuna görə çəpkənin inkişaf etmiş variantları hesab olunur [12, s. 135].

Çəpkən köynəyin üstündən geyilən, astarlı və yüngül sırınmış qadın üst geyimi olub, həm bahalı (məxmər, tirmə, zərxara, atlas və s.), həm də sadə parçalarla hazırlanırdı. Geyimin estetik görünüşündə rəng seçimi mühüm yer tuturdu; gənc qadınlar daha parlaq, yaşlılar isə tünd rənglərə üstünlük verirdilər. Bədənə kip oturan çəpkən bel xəttindən aşağı yan tikişlərdəki çapıqlar vasitəsilə genişlənirdi. Tikiş xətləri bafta, köbə, zəncirə, şahpəsənd və həşyə kimi bəzəklərlə örtülürdü. Yaxaya tikilən qızıl-gümüş pullar və zəncir elementləri onun dekorativ xarakterini gücləndirirdi.

Etnoqrafik materiallara görə çəpkən əsasən "uzunqol" və "sallamaqol" olmaqla iki formada yayılmışdır. Gəncəbasar bölgəsində isə dirsəyə qədər qolu olan çəpkən geniş istifadə olunmuşdur. Uzunqol çəpkənin qolları dirsəyə qədər dar olur, aşağıda yelpazəvari şəkildə 20–30 sm genişlənir və hərəkət rahatlığı üçün qoltuq altında kəsik saxlanılırdı. Sallamaqol variantında isə qollar çiyin tikişlərinə qondarma şəkildə bərkidilir, ucları "əlcək" və ya "qolçaq"la tamamlanırdı və bəzən ilgək-düymə və ya qaytan vasitəsilə formalaşdırılırdı. Bu qol hissəsinin astarı çox vaxt daha qiymətli və rəngli parçalardan hazırlanırdı [13, s. 105].

Qadın üst geyimlərindən biri də arxalıq olmuşdur. Arxalıq da çəpkən kimi astarlı və belə qədər bədənə kip biçilirdi. Arxalığa beldən aşağı hissədə büzmə, yaxud qırçınlı müxtəlif endə ətək tikilirdi. Bəzi arxalıqlar gen və düz biçilirdi, yan hissədə isə çapığı olurdu [8, s. 6]. Varlılarda tirmə, tafta, atlas, xara, zərxara, məxmər, darayı, qanovuz və b. parçalardan, kasıblarda isə sətin, qara lastik və digər ucuz parçalardan tikilən arxalıq Abşeronda "don", Azərbaycanın qərb bölgələrində isə "küləcə" adı ilə yayılmışdır. Qadın arxalıqları qol, yaxa və bel kəsiyinin quruluşuna görə etnoqrafik bölgələr üzrə lokal xüsusiyyətlər kəsb etmişdir. Belə ki, Gəncə-Qarabağ arxalıqları bel kəsiyinə görə 8-18 sm uzunluğunda zərif qırçınlı, nisbətən qısa ətəkli, qollarının formasına görə isə "nilufər qollu" (yelpazəli) olurdu [1, s. 101-102].

Gəncəbasar, Şirvan, Bakı, Qərb bölgəsi və Şəki rayonu hüdudlarında geniş yayılmış qadın üst geyimlərindən biri də ləbbadə (bəzən əhali arasında ona "lavada" da deyilir) olmuşdur. O iki qabaq (döş), bir arxa (kürək) və iki qoldan ibarət biçilir, içərisinə nazik yun və ya pambıq döşəməsi qoyulurdu. Gəncə bölgəsində bu geyim zıvınıya nisbətən bir qədər uzun hazırlanır, qolları isə ya dirsəyə qədər düz, ya da atmaqol variantında olurdu. Qoltuq hissələri açıq saxlanılır, yan tikişlərdə çapıq və ya çıxıntılar verilir, bu hissələr qaytan, zəncirə və bafta ilə bəzədilirdi. Geyimin ön hissəsi bədənə kip otursun deyə çarpaz qaytan (çarışqa, car-car) vasitəsilə bağlanırdı. Yaxa və ətək kənarları köbə ilə işlənir, yaxaya gümüş "qoza" düymələr düzülürdü. Lavada, adətən, məxmərdən, taftadan, qanovuzdan və b. bahalı parçalardan tikilirdi [9, s. 100].

Mövsümi səciyyəli qadın geyimlərindən bir tipini də kürdü təşkil edirdi. Adətən məxmər, tirmə, xara, ayulduz və digər qalın parçalardan tikilir, bəzən isə yaxşı aşılanmış dəridən hazırlanırdı. Bu zaman xəzin tüklü tərəfi içəriyə salınır, üstü parça ilə örtülərək astarlı formada [14, s. 46]. Kürdü adətən qolsuz, bəzən isə dirsəyə qədər yarımqol biçimdə tikilirdi. Geyimin yaxası açıq olur, yanlarında peş (çapıq) qoyulurdu. Kürdünün yaxa, qol yeri, ətək və

çapıq hissələri xəzlə haşiyələnir, xəz haşiyələrin üzərinə və ya kənarlarına bafta çəkilirdi. Bəzi nümunələrdə parçanın üzərinə yun döşənərək sırıqlı formada hazırlanırdı [11, s. 109]. Gəncədə isə dəridən hazırlanan kürdülərin qollarına və kənar tikişlərinə əlavə xəz qoyulmur, dirsəyə qədər qolu olan kürdülərdə yaxa açıq saxlanılır və qoltuq altına çapıq (peş) əlavə edilirdi.

Qadın üst geyimləri arasında çəpkən və arxalıqla tipoloji yaxınlıq təşkil edən küləcə Gəncə bölgəsində bayramlıq geyim dəstinin əsas tərkib hissələrindən biri olmuşdur. Bu geyim növü əsasən xara, zərxara, darayı, atlas, məxmər və tafta kimi bahalı parçalardan astarlı tikilir, yoxsul təbəqə isə daha sadə pambıq parçalardan istifadə edirdi. Onun yaxa kəsiyi oval formada olub boyaboy açıq idi. Qolları düzdəmə tikilir və ensiz bilərzik (məcə) ilə tamamlanırdı, bəzi hallarda isə bilərziksiz hazırlanaraq qolların ağzına zərli saplarla “qıyı” işlənirdi. Küləcənin ətəyi çərkəzidən fərqli olaraq xeyli uzun olub dizə qədər bədəni örtürdü. O, iki qabaq, bir arxa hissə, iki qol və ətəkdən ibarət biçilir, qoltuq altında kvadrat formalı yarıq qoyulurdu. Qurşaq hissəsində xırda düymə və ya çarpazla bağlanırdı. Belə qədər bədəni kip oturan, aşağı hissəsi isə büzmə ilə genişlənən bu geyim xalq arasında “büzmə” adı ilə də tanınırdı. Küləcənin yaxa, bel kəsiyi, ətək və qol ağzı zəngin tikmə texnikaları ilə bəzədilirdi. Güləbətin, muncuqlu pilək, məlilə, zəncirə, bafta, sərmə, qaragöz, buta, piləkli doldurma, düzmə və örtmə kimi ornamentlər geniş istifadə olunurdu. Bəzək zənginliyi və gül-çiçək motivlərinin çoxluğu onun adının “güllücə” sözündən yarandığı ehtimalını gücləndirir [13, s. 108-109].

Küləcənin digər variantı “baharı” adı ilə Gəncə-Qarabağ, Lənkəran-Astara, Bakı və digər bölgələrdə yayılmışdır. Biçim və tikiş texnikası baxımından küləcə ilə eyni olsa da, bəzi fərqlər mövcuddur. Baharıda yaxa kəsiyi həm düzbucaqlı, həm də oval formada ola bilir, qollar adətən yarımqol tikilir. Ətək quruluşu isə küləcəyə nisbətən daha qısa, arxalığa nisbətən isə daha uzundur [1, s. 106]. Geyim sırıqlı və astarlı hazırlanır, əsasən məxmər, atlas və darayı kimi bahalı parçalardan tikilirdi. Yaxası boyaboy açıq biçilir, ətək yanları, yaxa və qol kənarları küləcədə olduğu kimi zəngin bəzək elementləri ilə işlənirdi [8, s. 106].

Azərbaycanın, eləcə də Gəncənin ənənəvi qadın geyim kompleksi içərisində baş geyimləri xüsusi yer tutur. Qadın baş geyimləri geymə (qoyma) və bağlama ( örtmə) olmaqla iki qrupa bölünürdü. Birinci qrup baş geyimlərinə təsək (çəpçik), çutqu, araqçın, dingə, ikinci qrup baş geyimlərinə isə müxtəlif ölçülü və adlı ləçəklər, çalmalar, kəlağayılar, şallar, örpəklər, eləcə də niqab, rübənd, çutquqabağı, çadar, çarşab, duvaq və s. aid idi [9, s. 102].

Təsək (çəpçik) tipli qadın baş geyimləri XIX–XX əsrin əvvəllərində Azərbaycanın Gəncəbasar, Şirvan, Qarabağ, Şəki-Zaqatala və Qərb bölgələrində geniş yayılmışdır. Qərb bölgəsində biçiminə, materialına və geyilmə tərzinə görə üç növ təsək fərqləndirilirdi: saya, inci və qaysava təsəklər.

Saya təsək ağ və ya rəngli pambıq parçadan hazırlanır, qulaqcıq və kəlləlik hissələrindən ibarət olurdu. Bu baş geyimi boyun və qulaqları örtərək saç düzümünü qoruyur, çənəaltı qaytan vasitəsilə başda möhkəm saxlanılırdı. Alın hissəsi rəngli saplarla bəzədilirdi.

Saya təsəyin daha mükəmməl forması “inci” və “qaysava” adlanan üstü bəzəkli təsəklər (araqçın) idi. İnci təsək yekrəng ipək parçadan tikilir, üzəri buta, sarma, güləbətin, ulduz və əşrəfi motivləri ilə bəzədilirdi. Alın hissəsinə isə “qəfəsə” adlanan bəzəkli qabaqlıq əlavə olunurdu [3, s. 62].

Qaysava təsək əsasən qırmızı və ya yaşıl məxmərdən hazırlanır, müxtəlif tikmə və asma bəzəklərlə işlənirdi. Xüsusilə gəlinlik və nişan geyim dəstlərinin vacib elementi sayılırdı. Bu təsəyə bənd edilən gümüş bəzəklər və hörüklərə taxılan qumroylar (zınqırovlar) hərəkət zamanı cingiltili səslər yaradırdı.

Gəncəbasarda isə büzməli təsək və ya çəpçik istifadə olunurdu. Ağ parçadan hazırlanan bu baş geyimi çənəaltı bağlarla bərkidilir və əsasən yaşlı qadınlar tərəfindən geyinilirdi.

Azərbaycan qadınlarının örtmə (bağlama) tipli baş geyimləri arasında kəlağayı xüsusi əhəmiyyətə malik idi. Burada yaşa və zövqə uyğun olaraq qırmızı, ağ, palıdı yerli, yelənli kəlağayılar daha geniş yayılmışdı. Həm yerli kustar istehsala məxsus Gəncə, Şəki, Şamaxı, Basqal kəlağayılar, həm də gətirilmə kəlağayılar (“Şamaxı”, “kolxana”, “korxana”, “qonşuçatladan”, “saçaqlı kəlağayı”, “bağdadı”, “heratı”, “hələbi” və s.) varlı qadınların gündəlik geyim dəstində, yoxsulların isə bayramlq (boğçalıq) paltarları içərisində əsas yer tuturdu. Adətən, təsəyin və ya çalmanın üstündən örtülən kəlağayının baça bağlamaq üçün onu diaqnol boyunca qırqac edir, uclarından birini sinə üstünə sərbəst buraxıb, digər ucunu sərbəst qalan qanadın üstündən kürəyə atırdılar. Kəlağayın kürəyə atılan qanadından yaşmaq kimi də istifadə edilirdi [1, s. 111].

XIX–XX əsrin əvvəllərində Azərbaycan qadınlarının ənənəvi geyim kompleksinin mühüm tərkib hissəsini ayaq geyimləri təşkil edirdi. Ayaq geyimlərinə corab, badış, çarıq, başmaq, şətəl, çust, nəleyin, məst, dabanlı uzunboğaz və yarımboğaz çəkmə, quşkeçən, kəlik və digər növlər daxil idi.

Qış mövsümündə əsas ayaq geyimi yun corablar hesab edilirdi. Corablar həm saya (rezinli), həm də bəzəkli (rezinsiz) şəkildə toxunur, ölçüləri isə ayağa uyğun olaraq gözəyarı müəyyən edilirdi. Saya corabların boğaz hissəsində 7–8 sm enində rezin toxunur, toxuma dörd “sülü” milinin köməyi ilə aparılırdı. Bəzəkli corablarda isə rezin əvəzinə rəngli iplərlə müxtəlif ornamentlər işlənirdi. Əhali arasında “taxtamüjə”, “ərsin”, “alamuncuq”, “qarğaağzı”, “qoçbuynuzu”, “güllüxəmsə”, “dəhrəburnu”, “cəhrəpəri”, “gəldirgə”, “zəncir”, “göl”, “quyrum” və s. kimi həndəsi, bitki və xalça ornamentləri olan corablar daha geniş yayılmışdı. Qış corabları bəzən dizə qədər, əksər hallarda isə dizdən bir qarış aşağıyadək toxunurdu. Corab toxuculuğu Qərb bölgəsi, Gəncəbasar və digər ərazilərdə geniş yayılmış ənənəvi sənət sahələrindən biri idi [3, s. 66].

XIX əsrdə qadınlar arasında ən çox yayılmış ayaq geyimi növlərindən biri başmaq idi. Arxası açıq, hündür dabanlı bu ayaqqabıların üst hissəsi müxtəlif rəngli müşkü və tumacdan, altlığı isə aşılanmış göndən hazırlanırdı. Qadın başmaqları “zənanə”, “miyanə” və “qız başmağı” olmaqla üç ölçüdə tikilir, sifarişə uyğun olaraq yüksək zövqlə bəzədilirdi [3, s. 68]. Başmaqların ucu yuxarı qatlanmış formada hazırlanır, əlvan saplar, qızılı simlər, güləbətin və muncuq tikmələri ilə bəzədilirdi. Daban hissəsinə rəngli parçadan döşəmə qoyulur, varlı təbəqənin istifadə etdiyi nümunələrdə isə daban gümüş və ya qızıl lövhələrlə işlənirdi. Məxmərdən tikilən başmaqların üzəri güləbətin naxışlarla tərtib olunurdu [13, s. 117].

Başmaq istehsalı Azərbaycanın müxtəlif sənətkarlıq mərkəzlərində inkişaf etmişdi. Bu sahədə Gəncə mühüm yer tuturdu və burada hazırlanan yüksək keyfiyyətli başmaqlar “Gəncə başmağı” adı ilə tanınaraq geniş şöhrət qazanmışdı. Bununla yanaşı, Bakı, Şamaxı, Şuşa, Şəki və Ordubad da başmaqçılığın inkişaf etdiyi əsas mərkəzlərdən hesab olunurdu.

Naxçıvan, Qarabağ və Qərb bölgələrində geniş istifadə olunan qadın ayaq geyimlərindən biri də quşkeçən idi. Onun dabanı hüdür olduğuna görə, çox güman ki, belə adlandırılırdı.

Quşkeçənlər həm məişətdə, həm də mərasim geyimi kimi istifadə olunurdu. Xüsusilə nişanlı qızlara bayram və toy hədiyyəsi kimi təqdim edilir, XIX əsrdə isə gəlin üçün hazırlanmış nişan libası içərisində bir neçə cüt başmaq, uzunboğaz çəkmə və quşkeçənin olması vacib hesab edilirdi. Qeyd etmək lzımdır ki, hazırda gəlin üçün nişan sovqatı aparan zaman onun içərisinə ayaqqabı qoyulmur. Xalq inamına görə ayaqqabı “darlıq”, “sıxıntı” və s. kimi mənalandırılır [14, s. 52].

Qərb bölgəsində quşkeçən uzunboğaz və yarımboğaz, hündürdaban çəkmə növünə deyilirdi. Belə çəkmələrin üstü bəzən safyandan, bəzən də tumac və meşindən tikilir, müxtəlif tikmə naxışlarla bəzədilirdi.

Əhali arasında Şirvanın "qaytarmaburun", Gəncəbasarın isə yanları hörmə rezinli, xrom və ya adi aşılanmış göndən tikilmiş alçaqdabanlı, uzunboğaz çəkmələri geniş istifadə olunmuşdur.

*Nəticə*

Beləliklə, Gəncə bölgəsinin ənənəvi qadın geyimləri tarixi-etnoqrafik baxımdan zəngin və çoxşaxəli olub, yerli təbii şərait, ipəkçilik, toxuculuq və sənətkarlıq ənənələrinin təsiri ilə formalaşmışdır. Bu geyimlər həm estetik gözəlliyi, həm funksional xüsusiyyətləri, həm də sosial status, yaş və ailə vəziyyətini əks etdirməsi ilə seçilərək bölgənin mədəni irsini qoruyan və Azərbaycan milli geyim ənənələrinin mühüm və özünəməxsus bir qolunu təşkil edən etnoqrafik nümunə hesab olunur.

ƏDƏBİYYAT

1. Azərbaycan etnoqrafiyası. Üç cilddə. II cild. Bakı, "Şərq-Qərb", 2007, 384 s.
2. Azərbaycan milli geyimləri. https://azerbaijan.az/related-information/51
3. Cavadzadə G. "Azərbaycan milli geyimlərinin kompozisiya xüsusiyyətlərinin tədqiqi" mövzusunda magistr dissertasiyası. Bakı, 2015.
4. Dünyamalıyeva S. Azərbaycan geyim mədəniyyəti tarixi (bədii-etnoqrafik tədqiqat. Bakı, "Nağıl evi", 2003, 560 s.
5. Əfəndi R. Azərbaycan incəsənəti Bakı, "Şərq-Qərb", 2007, 160 səh. + 112 s. (illüst.).
6. Əfəndiyev R. Azərbaycanın maddi mədəniyyət nümunələri (Geyimlər), Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1960, 35 s.
7. Əliyeva N. Azərbaycan geyim mədəniyyət tarixindən. Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, Cild 90, № 6, 2023.
8. Əzizbəyova P. Azərbaycan Milli Geyimləri "Искусство" nəşriyyatı. Moskva, 1972, 128 s.
9. Həsənova G. Azərbaycan xalqının ənənəvi məişət mədəniyyəti (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında). Monoqrafiya. – Bakı: Mütərcim, 2024, 216 s.
10. Milli geyimlərimiz. https://kayzen.az/milli-geyiml%C9%99rimiz
11. Moda tarixi və dünya xalqlarının milli geyimləri (dərs vəsaiti). Bakı, "Təfəkkür" NPM, 2003, 304 s.
12. Mustafayev A. Azərbaycanın maddi mədəniyyət tarixi (etnoqrafik materiallar əsasında tipoloji tədqiqat). Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2009, 420 s.
13. Vəliyev F. XIX-XX əsrin əvvəllərində Azərbaycanın maddi mədəniyyəti (tarixi-etnoqrafik tədqiqat). Bakı, "Şərq-Qərb", 2010. 424 s.
14. Vəliyev F., Abdulova G. Qarabağ geyimləri. Kataloq. Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2016, 352 s.
15. Vəliyev F. Azərbaycanın maddi mədəniyyət tarixində Gəncə şəhərinin və Gəncəbasarın yeri (fərqli etnoqrafik məqamlar). "Azərbaycan ədəbiyyatı tarixində Gəncə" mövzusunda respublika elmi-nəzəri konfransın materialları, Gəncə, "Elm" nəşriyyatı, 2025-ci il.

УДК 902

*Айтен Ариф кызы Исаева*
*Ибрагимова Мюшарраф Эльхан*
*Гянджинское Отделение НАНА*

ТРАДИЦИОННАЯ ЖЕНСКАЯ ОДЕЖДА ГЯНДЖИНСКОГО РЕГИОНА И ЕЁ ЭТНОГРАФИЧЕСКИЕ ОСОБЕННОСТИ
*РЕЗЮМЕ*

*Ключевые слова*: Гянджа, традиционная женская одежда, шелководство и ткачество, азербайджанский национальный костюм, XIX–XX века

В статье исследуется традиционная женская одежда Гянджинского региона и её этнографические особенности. Исследования показывают, что эта одежда, являясь частью общей системы национальной одежды Азербайджана, обладала также характерными локальными особенностями. В изготовлении одежды важную роль играли местные традиции ткачества и шелководства; форма, выбор цветов и декоративные элементы отражали эстетический вкус региона и социально-культурную среду. В статье проанализированы основные элементы женского костюмного комплекса - нижняя и верхняя одежда, головные уборы и обувные принадлежности, подчёркнута их связь с социальным статусом, возрастными различиями и региональными особенностями. Таким образом, традиции женской одежды, сложившиеся в Гянджинском регионе, характеризуются как историко-этнографически богатое, многогранное и важное культурное наследие.

UDC 902

*Aytan Arif Isaeva*
*Musharraf Elkhan Ibrahimova*
*Ganja Branch of ANAS*

TRADITIONAL WOMEN’S CLOTHING OF THE GANJA REGION AND ITS ETHNOGRAPHIC FEATURES
*SUMMARY*

*Keywords:* Ganja, traditional women’s clothing, sericulture and weaving, Azerbaijani national costume, 19th–20th centuries

The article examines the traditional women’s clothing of the Ganja region and its ethnographic features. Research shows that this clothing, while forming part of Azerbaijan’s overall national costume system, also possesses distinct local features. Local weaving and sericulture traditions played a significant role in the production of these clothes, and their design, color choices, and decorative elements reflected the region’s aesthetic taste and socio-cultural environment. The article analyzes the main components of the women’s costume complex, including lower and upper garments, as well as headwear and footwear, highlighting their connection to social status, age distinctions, and regional characteristics. Thus, the women’s clothing traditions of the Ganja region are characterized as historically and ethnographically valuable, multifaceted, and an important part of cultural heritage.

***Daxil oldu: 16.06.2026-cı il***